

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır


Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 30 (24.167)

16 fevral 2023-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti 2023-cü ilin fevral ayının ilk 15 günü ərzində bir sıra qərarlar qəbul edib. Belə ki, Nazirlər Kabinetinin 1 fevral 2023-cü il tarixli Qərarı ilə "Nəzarətli göndəriş metodundan istifadə etməklə muxtar respublikanın gömrük sərhədindən keçirilən mülki dövriyyədən çıxarılmış və ya mülki dövriyyədə məhdudlaşdırılmış malların götürüldüyü hallar və bunun Qaydası"nın təsdiq edilməsi haqqında", "Alternativ enerji mənbəyi kimi günəş enerjisindən elektrik enerjisi alınması üçün Naxçıvan Muxtar Respublikasına idxal olunan avadanlıqların gömrük idxal rüsumundan və əlavə dəyər vergisindən azad olunması haqqında", "Naxçıvan Muxtar Respublikasında xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"nin təsdiq edilməsi haqqında" qərarları Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarlarına uyğunlaşdırılmışdır.

Bundan başqa, Nazirlər Kabinetinin eyni tarixli Qərarı ilə "Naxçıvan Muxtar Respublikasında sürətli poçt xidmətlərinin göstərilməsi Qaydaları"nın, "Naxçıvan Muxtar Respublikasının ərazisini tərk edən avtonəqliyyat vasitələrində yanacağın daşınması ilə bağlı əlavə tədbirlər haqqında", "Sərhədyanı ticarət Qaydaları"nın təsdiq edilməsi barədə, eləcə də "Naxçıvan Muxtar Respublikasında sürətli poçt xidmətlərinin göstərilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" qərarları ləğv edilərək Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarlarına uyğunlaşdırılmışdır.

Nazirlər Kabinetinin 1 fevral 2023-cü il tarixli Qərarına əsasən "Bir sıra təsərrüfathesablı dövlət müəssisələrinin və paylarının(səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan bir sıra hüquqi şəxslərin ştat cədvəllərinin təsdiq edilməsi haqqında" Qərarında dəyişiklik edilmişdir. Dəyişikliyə görə "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksinin ştat cədvəli ləğv edilmişdir. Bu qərardan irəli gələn məsələlərin həlli Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Agentlik tərəfindən həyata keçiriləcəkdir.

Həmçinin Nazirlər Kabinetinin eyni tarixli Qərarı ilə "Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin nikah evlərinin və qeydiyyat şöbələrinin ştat cədvəli"ndə dəyişiklik edilmişdir.

Nazirlər Kabinetinin 3 fevral 2023-cü il tarixli Qərarı ilə "Naxçıvan Muxtar Respublikasında müntəzəm avtobus marşrutlarında sərnişindaşıma xidmətlərinin tarifləri"nin təsdiq edilməsi haqqında" Qərarı ləğv edilmişdir. Bundan sonra sərnişindaşıma xidmətlərinin tarifləri Azərbaycan Respublikası Tarif (Qiymət) Şurasının təsdiq etdiyi qiymətlərlə müəyyən ediləcəkdir.

Nazirlər Kabinetinin eyni tarixli digər bir Qərarı ilə "Naxçıvan Muxtar Respublikasında dövlət və bələdiyyə tərəfindən yaradılan tibb müəssisələrinin Nümunəvi Nizamnaməsi" təsdiq edilmişdir. Adıçəkilən Nizamnaməyə görə müəssisənin fəaliyyətinin əsas məqsədi xidmət göstərdiyi əhalinin sağlamlığının qorunması və bu sahədə hüquqlarının təmin edilməsindən ibarətdir. Müəssisənin saxlanılması xərcləri və fəaliyyəti müvafiq olaraq, Naxçıvan Muxtar Respublikasının büdcəsi və ya yerli büdcə, büdcədənkənar vəsaitlər, könüllü və icbari tibbi sığorta sistemindən daxil olan vəsaitlər, hüquqi və fiziki şəxslərin gəlirlərindən könüllü ayırmalar, hüquqi və fiziki şəxslərin ianələri və qanunvericilikdə nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir.

Nazirlər Kabinetinin 7 fevral 2023-cü il tarixli bir sıra qərarları ilə muxtar respublika ərazisində olan tibb müəssisələrinin Nizamnaməsi və ştat cədvəli qanunvericiliyə uyğun olaraq Səhiyyə Nazirliyi tərəfindən təsdiqlənəcəkdir.

Nazirlər Kabinetinin 10 fevral 2023-cü il tarixli Sərəncamına əsasən Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcə layihəsinin, muxtar respublikanın iqtisadi və sosial proqnoz göstəricilərinin, investisiya proqramının istiqamətləri üzrə layihəsinin hazırlanması həyata keçiriləcəkdir. Dövlət büdcəsi gəlirlərinin icrasını təmin edən orqanlar, nazirliklər, komitələr və dövlət büdcəsindən maliyyələşən, maliyyə yardımı alan digər təşkilatlar növbəti büdcə ili və sonrakı üç il üçün büdcə layihələrini tərtib edərək qanunvericiliyə uyğun olaraq bu Sərəncamdan irəli gələn digər vəzifələrin müəyyən olunmuş icra müddətlərində yerinə yetirilməsini təmin edəcəklər.

Nazirlər Kabinetinin eyni tarixli Qərarı ilə "Naxçıvan Muxtar Respublikasının Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə işə qəbul Qaydaları"nın təsdiq edilməsi haqqında" Qərarı ləğv edilərək müvafiq səlahiyyətlərin həmin qurumlar tərəfindən həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Qəbul olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində *(www.huquqiaktlar.nakhchivan.az)* tanış olmaq mümkündür.

## Naxçıvan Muxtar Respublikası Prokurorluğunda vətəndaş qəbulu keçirilib

Fevralın 15-də Naxçıvan Muxtar Respublikası prokurorunun müavini Sənan Paşayev vətəndaşları qəbul edib.

Qəbulda iştirak edən 14 vətəndaşın müraciəti dinlənilərək törədilmiş cinayətlər barədə məlumatların araşdırılması, mülki xarakterli mübahisələrlə bağlı və sosial problemlərə aid müraciətlərin bilavasitə prokurorluqda və ya aidiyyəti orqanlarda həlli üçün müvafiq göstərişlər verilib.

**Xəbərlər şöbəsi**

## "Naxçıvan" Universiteti beynəlxalq reytinq cədvəllərində uğur qazanıb



"Naxçıvan" Universiteti uniRank və Webometrics kimi dünya universitetlərinin nüfuzlu reytinq sistemləri tərəfindən fərqli kateqoriyalarda qiymətləndirilib. Belə ki, dünya universitetlərinin veb-populyarlığını müəyyən edən uniRank reytinqinin seçim meyarlarına cavab verən Azərbaycanın 41 universiteti arasında 28-ci yerin sahibi olub.

UniRank reytinqində "Naxçıvan" Universitetinin tarixi, təqdim olunan təhsil, kitabxana, mübadilə imkanları, həmçinin akademik və qeyri-akademik xidmətləri və digər məlumatlar əks olunub. Qiymətləndirmədə əsas meyarlardan biri müstəqil veb-saytın olması və daha çox istifadəçiyə çatdırılmasıdır.

Webometrics reytinq sistemində isə "Naxçıvan" Universiteti İmpact Rank (Təsir dərəcəsi), Oppeness Rank (Şəffaflıq dərəcəsi) və Excellence Rank (Mükəmməllik dərəcəsi) kateqoriyaları üzrə 29-cu yerdə qərarlaşıb. Bu nəticələr universitetin yüksək təhsil standartlarına malik olduğunu və digər ali təhsil ocaqları ilə rəqabət edə biləcək səviyyədə dayandığını göstərir.

Qeyd edilib ki, universitet yenilikçi araşdırmalar, təhsil keyfiyyəti və tələbə məmnuniyyəti kimi faktorlara diqqət yetirərək gələcəkdə daha yüksək göstəricilərə nail olmağı, digər nüfuzlu universitet reytinq sistemlərində tanınmağı hədəfləyir. "Naxçıvan" Universiteti beynəlxalq platformada özünü daha yaxşı tanıtmağı və tələbələrinə mükəmməl bir təhsil təcrübəsi təklif etməyi planlaşdırır.

Məlumat üçün bildirək ki, sözügedən reytinq sistemləri dünya üzrə akkreditasiya olunan ali təhsil müəssisələrinin veb-populyarlığı üzrə təhlilini ehtiva edən beynəlxalq ali təhsil direktoriyası və axtarış sistemləridir. 2004-cü ildən keçirilən "Webometrics" və 2005-ci ilin may ayından etibarən ildə iki dəfə nəşr olunan uniRank reytinqinin hədəfi dünya universitetləri və kolleclərinin veb-səhifələrinin populyarlığını əks etdirməkdir. Bu isə əcnəbi tələbələrə və akademik heyətə hər hansı ölkə daxilində universitet və kollecin nə dərəcədə populyar olması barədə məlumat əldə etməyə imkan verir.

***"Naxçıvan" Universitetinin mətbuat xidməti***

## Xarici şirkətlər Naxçıvanda *"Yaşıl enerji"* layihələrini reallaşdıra bilər

Azərbaycanda fəaliyyət göstərən "Masdar", "ACWA Power", "Fortescue Future Industries" şirkətləri Naxçıvanda "Yaşıl enerji" layihələrini reallaşdıra bilər.

Bu barədə Azərbaycan Respublikası Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyindən (AREA) məlumat verilib.

Bildirilib ki, AREA rəhbərliyi və "Masdar", "ACWA Power", "Fortescue Future Industries" şirkətlərinin nümayəndələri Naxçıvana səfər ediblər. Səfər çərçivəsində Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin əməkdaşları ilə görüş keçirilib. Xidmətin ümumi enerji sistemi və bərpa olunan enerji layihələri barədə məlumatı dinlənilib. Muxtar respublikanın geniş bərpa olunan enerji potensialının olduğu diqqətə çatdırılıb, sənaye miqyaslı "Yaşıl enerji" layihələrinin reallaşdırılması istiqamətində müzakirələr aparılıb. Nümayəndə heyəti Babək rayonunda yerləşən günəş elektrik stansiyasına baş çəkib.



Daha sonra Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin nümayəndələri ilə görüş keçirilib. Görüşdə günəş və külək enerjisi ərazilərinin ayrılması ilə bağlı müzakirələr aparılıb. "Yaşıl enerji" layihələri üçün seçilmiş ərazilərə baxış keçirilib.

**Xəbərlər şöbəsi**

## Tibbi xidmətin səviyyəsi yüksəldilir



Əhalinin sağlamlığının qorunması dövlətin əsas prioritet sahələrindən biridir. Məhz bu səbəbdən 2022-ci ildə də səhiyyənin inkişafı diqqətdə saxlanılmış, bu sahə dövlət qayğısı ilə yüksək səviyyədə təmin olunmuşdur. Səhiyyə sisteminin yenidən qurulması, infrastrukturunun yenilənməsi, səhiyyə müəssisələrinin müasir avadanlıqlarla təchiz olunması, kadr hazırlığı, yoluxucu xəstəliklərin profilaktikası və əks-epidemik tədbirlərin aparılması daim diqqət mərkəzində saxlanılmış, insanların sağlamlığının



qorunması və pandemiya ilə mübarizə sahəsində ardıcıl tədbirlər görülmüşdür. Ötən illərdə olduğu kimi 2022-ci ildə də quruculuq işlərinin aparılması diqqətdə saxlanılmış, Şərur Rayon Çərçiboğan kənd həkim ambulatoriyası, Ordubad Rayon Pəzməri və Unus, Kələki feldşer-mama məntəqələri tikilərək və ya əsaslı bərpa olunaraq ən müasir tibbi avadanlıqla, maddi-texniki baza ilə təchiz edilərək əhalinin istifadəsinə verilmişdir.

Yoluxucu xəstəliklərin qarşısının alınması məqsədilə dezinfeksiya, dezinseksiya, larviolla delarvasiya tədbirləri intensiv olaraq davam etdirilmiş, hepatit B və C virus infeksiyaları, COVİD-19 pandemiyasının qarşısının alınması məqsədilə əks-epidemik tədbirlər ardıcıllıqla davam etdirilmişdir. Nikaha girənlərin öncədən tibbi müayinələrdən keçirilməsi, hepatit, QİÇS və digər yoluxucu xəstəliklərə görə müayinələr davam etdirilmişdir. Görülən bu işlərin nəticəsidir ki, muxtar respublikada kəskin və təhlükəli yoluxucu xəstəliklər aşkar olunmamış, yoluxucu xəstəliklərə görə epidemioloji vəziyyət sabit olmuş, zoonoz və xüsusi təhlükəli infeksiyalar qeydə alınmamışdır. Peyvəndləmə işi daim nəzarətdə saxlanılmış, muxtar respublikanın bütün peyvənd məntəqələri vaksin və şprislərlə tam təchiz edilmiş, yenidoğulmuşların peyvənd təqviminə uyğun immunlaşmaya cəlb olunma səviyyəsi 97 faiz olmuşdur.

Muxtar respublikada zoonoz və digər infeksiyaların qarşısının alınması məqsədilə profilaktik olaraq ictimai, inzibati və təsərrüfat obyektləri, su təchizatı qurğuları və digər obyektlər olmaqla, ümumilikdə, 9816039 kvadratmetr sahədə dezinfeksiya, 558332 kvadratmetr sahədə dezinseksiya işləri aparılmışdır. Şərur rayonunda 943,6 hektar sahədə, Babək rayonunda 48 hektar sahədə, Sədərək rayonunda 1 hektar sahədə delarvasiya işləri aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

2023-cü il "Heydər Əliyev İli"dir

# Gələcəyə istiqamət verən LİDER:

## Heydər Əliyev və müstəqil Azərbaycan gəncliyi




*Gənclik gələcəyimizdir, gələcəyimizin təminatıdır. Gəncliyə etinasız yanaşmaq gələcəyi təhlükəyə atmaq deməkdir. Gənclərinə dəyər verməyən, onlara qayğı göstərməyən bir dövlətin yaşaması mümkün deyildir.*

Tarixə nəzər saldıqda görürük ki, gəncliyə dəyər verən, onun inkişafına sərmayə qoyan dövlətlər məhv olmaq təhlükəsindən nəinki xilas olub, zaman keçdikcə daha da güclənib, inkişaf edib. Təbii ki, o ölkələr xoşbəxtliyə çatıb ki, çətin dövrlərdə onların güclü və uzaqgörən liderləri olub. O liderlər ki xalq onları sevib, inanıb, güvənib və ən çətin vəziyyətlərdə taleyini onlara etibar edib. Necə ki ölkəmizin yaxın tarixinin ən çətin dövrü kimi yaddaşlarda qalan 1990-1993-cü illərdə xalqımız Ümummilli Lider Heydər Əliyevə etibar etdiyi kimi.

Azərbaycandan ayrı düşmüş, ağır blokada şəraitində olan Naxçıvanda xalqın istəyi ilə qurtuluş mübarizəsinə başlayan Ulu Öndər qəbul etdiyi qərarlarla milli kimliyimizi özümüzə qaytarmış, Naxçıvanı yox olmaq təhlükəsindən xilas etmişdir. İnsanların gündəlik ərzağa olan tələbatının ödənilməsində çətinliklərin, sərhəddə hərbi toqquşmaların olduğu bir vaxtda gənclərin təhsilini, gəncliyin gələcəyini düşünərək zamanı qabaqlayan addımlar atmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olduğu dövrdə Türkiyə Respublikasının Prezidenti və Baş nazirinin dəvəti ilə qardaş ölkəyə rəsmi səfər edən Ulu Öndər Heydər Əliyev 1992-ci il mart ayının 24-də səfərin yekunları ilə bağlı imzaladığı əməkdaşlıq protokolunda muxtar respublika ilə Türkiyə Respublikası arasında iqtisadi, sosial və mədəni əlaqələrin inkişafına dair məsələlərlə yanaşı, hər il 100 naxçıvanlı gəncin Türkiyədə təhsil almasına nail olmuşdu. Həmin dövrün reallığı nəzərə alındıqda bu, çox böyük nailiyyət və uzaqgörən addım idi. Həmin ilin oktyabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisində Türkiyədə təhsil almağa gedən gənclərlə keçirilən görüşdə Ümummilli Liderin ***"Bəli, biz indi çox böyük böhran içərisindəyik. Ümumiyyətlə, Azərbaycan və xüsusən Naxçıvan blokada şəraitində, müharibə şəraitində, sosial-iqtisadi böhran içərisindədir. Bu gün adamlara adicə yaşayış şəraiti yaratmaq üçün un, ət, yağ, yanacaq və başqa zəruri mallar lazımdır. Bunlar bu gün üçün, sabah üçün, bir sözlə, yaşamaq üçün lazımdır. Lakin biz yalnız bu günün tələbləri ilə yaşaya bilmərik. Biz bu gün sabahı, gələcəyi düşünməliyik"*** kimi müdrik fikri dahi rəhbərin o dövrün bədbin mənzərəsi içərisində gənclərin gələcəyinə necə böyük ümid bəslədiyini görməyə imkan verirdi. Ümummilli Liderin Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi 3 ilə yaxın müddətdə tətbiq etdiyi siyasi xətt burada yaşayışı və inkişafı təmin etmişdir.

Ulu Öndər 1993-cü ildə xalqın istəyi ilə ikinci dəfə hakimiyyətə qayıdışından sonra da ölkəmizdə gəncliyin inkişafını diqqətdə saxlamış, gənclərlə iş dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrilmişdir. Təsadüfi deyil ki, ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandığı bir vaxtda Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başlayan Ümummilli Lider cəmi 3 ay sonra ilk görüşlərindən birini məhz gənclərlə keçirmişdir. Çünki həmin dövrdə ölkədə yaranmış xaos gənclərin həyatına da ağır zərbə vurmuş, gəncliyin gələcəyi sual altında qalmışdı. 1993-cü ilin sentyabrında gənclərin nümayəndələri ilə görüşdə onlara dərin inam bəslədiyini ifadə edən Ulu Öndərin genişməzmunlu nitqi gənclərin gələcək inkişafı üçün fəaliyyət proqramı olmuşdur. Gənclərə istiqamət verən dahi öndər bildirmişdir: ***"Əsrlərboyu inkişaf etmiş dünya sivilizasiyası möhkəm təhsil və elm üzərində qurulmuşdur, yüksək tərbiyə üzərində qurulmuşdur. Mən bizim gənclərimizi də bu yola dəvət edirəm. Güman edirəm ki, müstəqil Azərbaycan Respublikası gənclərinin yolu da bu yoldur, onlar bu yolla getməlidirlər. Biz də bu yolla getməkdə sizə kömək edəcək, şərait yaradacağıq"***. Şübhəsiz ki, Ulu Öndərin tövsiyələri və gənclərə verdiyi dəstək həmin illərdə ölkəmizdə gedən ictimai-siyasi proseslər nəticəsində gənclərin bir qismində yaranmış bədbin əhvali-ruhiyyənin tədricən aradan qalxmasında, yolayrıcında çaşbaş qalan gəncliyin düzgün istiqamətlənməsində, onların təhsil və tərbiyəsi işlərində, mənəviyyatca formalaşmasında və gələcək həyat fəaliyyəti üçün hazırlanmasında faydalı olmuşdur.

Həmin dövrdə gənclərin vətənpərvərlik tərbiyəsi sahəsində görülən işlər davamlı xarakter almış, yaradıcılıq baxımından xüsusi istedadı və idman sahəsində yüksək nailiyyətləri olan gənclərə göstərilən diqqət gücləndirilmişdir. Ümummilli Liderin 1993-cü ildə imzaladığı "Xüsusi istedadı və idman sahəsində yüksək nailiyyətləri olan gənclərin ali və orta ixtisas məktəblərinə güzəştli qəbulu haqqında" Sərəncamı gənclər arasında yaradıcılığın və intellektual inkişafın stimullaşdırılması istiqamətində atılmış addımlardan biri idi. Bu istiqamətdə görülmüş işlər ölkədən kənarda yaşayan azərbaycanlı gənclərin də diqqətdə olduğunu bir daha göstərirdi. Ulu Öndərin 1994-cü ildə imzaladığı "Gürcüstan Respublikasında və Rusiya Federasiyasının Dağıstan Respublikasında yaşayan azərbaycanlı gənclərin respublikanın ali məktəblərində yerləşdirilməsi haqqında" Sərəncamı həmin gənclər sırasından yüksəkixtisaslı kadrların hazırlanması baxımından müstəsna əhəmiyyət daşıyırdı.

Ümummilli Liderin 1994-cü il 26 iyul tarixli Fərmanı ilə Gənclər və İdman Nazirliyinin yaradılması isə müasir gənclər və idman siyasətinin əsasını qoymuşdur. Dahi şəxsiyyətin ikinci dəfə hakimiyyətə qayıdışından sonra ilk mərkəzi icra hakimiyyəti orqanlarından biri kimi məhz həmin dövlət orqanının yaradılması dövlətin və cəmiyyətin müxtəlif sahələrində gənclərin iştirakının təmin edilməsində, onların təşkilatlanmasında mühüm rol oynamış, gənclərlə iş sahəsində milli siyasət konsepsiyası vahid mərkəzdən həyata keçirilməyə başlanılmışdı.

Ölkəmiz üçün ən böyük nailiyyətlərdən biri də Ümummilli Liderin rəhbərliyi ilə müstəqil Azərbaycan Respublikasının yeni Konstitusiya layihəsinin hazırlanması olmuşdur. Konstitusiyanın maddələrinin üçdəbir hissəsinin respublika vətəndaşlarının, o cümlədən gənclərin hüquq və azadlıqlarına həsr olunması dövlətimizin insan və şəxsiyyət amilinə həssas münasibətinin ən yüksək səviyyədə ifadəsi olmuşdur. 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Konstitusiyada insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətimizin ali məqsədi kimi bəyan edilmişdir.

Dahi şəxsiyyətin rəhbərliyi ilə aparılan ardıcıl və məqsədyönlü siyasət nəticəsində ictimai-siyasi sabitliyin təmin olunması, nəhəng iqtisadi layihələrin həyata keçirilməsi ölkəmizin inkişafı üçün yeni imkanlar yaratmışdı. Sözsüz ki, bu inkişafın sağlam təməllər üzərində inşa edilməsi üçün zamanın keşməkeşli və çətin yollarından keçmiş gənclərin imkanlarından səmərəli istifadə olunmalı idi. Çünki gənclik olmadan gələcəyin inşası mümkün deyildi. Bütün bunları həmişə olduğu kimi, uzaqgörənliklə düşünən Ümummilli Lider Azərbaycan gənclərinin forumunun keçirilməsi təşəbbüsü ilə çıxış etmiş, 1996-cı il fevralın 2-də özünün iştirakı ilə müstəqil Azərbaycan Respublikası gənclərinin birinci forumu keçirilmişdir. Forumda Ulu Öndərin proqram xarakterli çıxışlarında gənclərin qarşısında duran tarixi vəzifələr sadalanmış, gənclər siyasətinin əsas istiqamətləri müəyyən olunmuşdur. Bildirilmişdir ki, gənclərin əsas vəzifəsi özünü müstəqil Azərbaycan Respublikasının inkişafına, yaşamasına və əbədi olmasına həsr etməkdən ibarət olmalıdır. Gənclər tariximizi, keçmişimizi, dilimizi, milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməli, Vətənimizi, ölkəmizi, torpağımızı, xalqımızı, millətimizi, dilimizi, dinimizi, milli ənənələrimizi sevməli, vətənpərvər olmalıdırlar.

1997-ci il fevralın 1-də gənclərin birinci forumunun ildönümü münasibətilə gənclərlə görüşən Ulu Öndər ötən bir il ərzində görülmüş işləri təhlil etmiş, gəncliklə bağlı əsas problemlərin həlli yollarını müəyyən etmişdir. Respublika Prezidentinin imzaladığı Sərəncamla fevralın 2-si Azərbaycan gəncləri günü elan edilmişdir. Həmin vaxtdan etibarən Gənclər Gününün MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq ölkəmizdə təntənəli şəkildə qeyd olunması dahi öndərin gəncliyə göstərdiyi diqqət və qayğının daha bir nümunəsi idi.

***"Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması onun mənsub olduğu xalqın rifahının, ölkənin çiçəklənməsinin rəhnidir"***, – deyən Ulu Öndərin gənclərlə görüşləri sonrakı illərdə də davamlı xarakter almışdır. Gənclərin 1999-cu və 2003-cü illərdə keçirilən növbəti forumlarında Ulu Öndər çıxışı və müraciəti zamanı, dövlət orqanlarının diqqətinin gənclərin problemlərinin həllinə yönəldilməsinin, ölkənin ictimai-siyasi həyatında gənclərin daha fəal iştirakı üçün şərait yaradılmasının önəmini bir daha vurğulamışdır. Azərbaycanın dövlət müstəqilliyinin və suverenliyinin qorunub möhkəmləndirilməsi, ərazi bütövlüyünün təmin edilməsi, o cümlədən işğal olunmuş torpaqlarımızın azad olunması, ölkə iqtisadiyyatının sürətlə inkişaf etdirilməsi, əhalinin sosial problemlərinin həll edilməsi, Azərbaycanın dünya birliyində öz layiqli yerini tutması yolunda görüləsi işlərin çox olduğunu bildirən dahi öndər XXI əsrdə müstəqil Azərbaycanın inkişafı naminə görüləcək bu əzəmətli işlərin həyata keçirilməsinin əsas ağırlığının və məsuliyyətinin gənclərin üzərinə düşdüyünü qeyd etmişdir.

Gənclərlə iş dövlət siyasətinin mərkəzində dayandığından bu sahədə qanunvericilik bazasının möhkəmləndirilməsi ilə bağlı mühüm addımlar atılmışdır. Gənclər siyasətinin ayrı-ayrı istiqamətləri üzrə sənədlər, o cümlədən 1999-cu ildə "Dövlət gənclər siyasəti haqqında" Fərman imzalanmış, 2002-ci ildə "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Bundan əlavə, 1996-2002-ci illərdə qəbul olunmuş daha bir neçə hüquqi-normativ akt gəncliyin daha sürətli və hərtərəfli inkişafına şərait yaratmışdır.

Azərbaycanı gənclər ölkəsi, gəncləri isə ölkəmizin gələcəyi adlandıran Ümummilli Liderin dövlət gənclər siyasətinin inkişafı istiqamətində müəyyənləşdirdiyi siyasi xətt ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir. Ulu Öndərin tövsiyələri ilə istiqamətlənən gənclik müstəqilliyimizi, milli-mənəvi dəyərlərimizi, adət və ənənələrimizi keçmişdən gələcəyə daşıyır. Bu gün Azərbaycan gəncliyi üçün müasir təhsil mühiti, yeni iqtisadi imkanlar yaradılıb, gənclərin hüquqları genişləndirilib, maddi təminatları möhkəmləndirilib, mənəvi inkişafı təmin edilib. Həyata keçirilən tədbirlər gəncliyi inkişafın yeni mərhələsinə çıxarıb. Gənc nəslin ölkənin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında fəallığı artıb, vətənpərvərlik ruhu və vətəndaşlıq mövqeyi möhkəmlənib. Yaradılan şəraitin nəticəsidir ki, bu gün minlərlə gənc beynəlxalq miqyaslı tədbirlərdə ölkəmizi uğurla təmsil edir, gənclərimizin qələbələri sayəsində Azərbaycan Bayrağı xarici ölkələrdə Dövlət Himnimizin sədaları altında yüksəklərə ucaldılır. Gənclərin mədəniyyətlərarası dialoqun aparılmasında fəal iştirakı ölkəmizi beynəlxalq müstəvidə daha yaxından tanıdır. Bir sözlə, gənc nəsil onlar üçün yaradılan şəraitdən səmərəli istifadə etməklə ölkəmizin ümumi inkişafına öz töhfəsini verir.

Gənclər bu gün milli dəyərlər üzərində qurulmuş müstəqil Azərbaycanın dövlət quruculuğunda, ərazi bütövlüyünün təmin olunmasında da aparıcı rola sahib olub. Ulu Öndərin ölkəmizə rəhbərlik etdiyi illərdə doğulan, böyüyən və istiqamətlənən, cənab İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə yetişən, formalaşan gənclər 2016-cı ildə Aprel döyüşlərində, 2018-ci ildə Naxçıvanda Günnüt əməliyyatında, 2020-ci ilin iyulunda Tovuz döyüşlərində Ermənistan ordusu barədə yayılan mifi darmadağın edib. 2020-ci il 27 sentyabrda başlayan, Azərbaycanın böyük Zəfəri ilə yekunlaşan 44 günlük Vətən müharibəsində işğalçı dövlətin ordusunu fiziki və mənəvi cəhətdən məğlubiyyətə uğradıb, torpaqlarımızı işğaldan azad edərək tarixi ədaləti bərpa edib. Dillərdə dastan olan, qəhrəmanlığın zirvəsi Şuşa əməliyyatı ordumuzun gücünü və yenilməzliyini bütün dünyaya bir daha nümayiş etdirib. Ölkə Prezidenti cənab İlham Əliyevin 2021-ci ildə Şuşada Cıdır düzündə müraciəti zamanı söylədiyi ***"...Mən dəfələrlə deyirdim ki, heç vaxt Azərbaycan xalqı bu vəziyyətlə barışmayacaq. Siyasi, iqtisadi, hərbi, mənəvi istiqamətlərdə, gənc nəslin tərbiyə edilməsi istiqamətində məqsədyönlü siyasət aparılırdı və elə gənc nəsil yetişdi ki, canını fəda etdi torpaq uğrunda. Elə gənc nəsil yetişdi ki, öz qanı-canı bahasına torpağımızı düşmənin əlindən aldı"*** müdrik fikirləri Ümummilli Liderin 1994-cü ildə çıxışı zamanı uzaqgörənliklə ifadə etdiyi: ***"Mən əminəm ki, bu ağır, çətin dövrdə dünyaya gəlib böyüyən uşaqlar cəsarətli, mətin, vətənpərvər olacaqlar. Azərbaycanın xoşbəxt gələcəyi naminə həm təhsil alıb böyüyəcəklər, həm də gələcəkdə cəmiyyətdə öz yerlərini tutacaqlar"*** məramının təsdiqi idi.

Liderin böyüklüyünü başa düşmək üçün zamanın ucalığında dayanmaq lazımdır. Aradan keçən zaman kəsimi ötən dövrlərdə qəbul olunan qərarların əsl mahiyyətini bu gün daha yaxşı başa düşməyə imkan vermişdir. Prezident cənab İlham Əliyevin "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" 2022-ci il 29 sentyabr tarixli Sərəncamına əsasən 100 illiyini qeyd etməkdə olduğumuz Ümummilli Liderin müstəqilliyimizin ilk illərində atdığı addımlar dövlətçilik dəyərlərimizə bağlı, tarixi yaddaşı qoruyub saxlayan, intellektual, vətənpərvər və sağlamdüşüncəli gənc nəslin yetişməsində mühüm rol oynamışdır. Gələcəyə istiqamət verən LİDER ***"İnanıram ki, gənc Azərbaycan dövləti məhz bu saf əqidəli, dərin bilikli, geniş dünyagörüşlü, mətin və dönməz gənclərimizin fəaliyyəti sayəsində öz müstəqilliyini əzmlə qoruyacaq, dünyanın ən qüdrətli dövlətlərindən birinə çevriləcəkdir"*** ifadəsi ilə, əslində, dövlətlər arasında söz sahibi olan, beynəlxalq müstəvidə onunla hesablaşılan bugünkü müstəqil Azərbaycanın təməlinin necə qoyulduğunun qısa izahını vermişdir.

**Əliheydər QURBANLI**
***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının baş məsləhətçisi***

## Naxçıvanlı məktəblilər *"Sabahın alimləri"* XII respublika müsabiqəsində qalib olublar



*Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin Təhsil İnstitutu tərəfindən keçirilən "Sabahın alimləri" XII respublika müsabiqəsi yekunlaşıb.*

Müsabiqənin yekun nəticələrinə əsasən Naxçıvan Qızlar Liseyinin şagirdləri Surə Ələkbərova və Jalə Bayramova riyaziyyat nominasiyası üzrə II yerə layiq görülüblər. Şagirdlərin elmi rəhbəri Adil Abdullayev, mütəxəssis alim isə Bəhman Məmmədovdur.

Müsabiqədə Heydər Əliyev adına tam orta məktəbin şagirdi Asya Əliyeva "Darıdağ sürmə filizindən kosmetik sürmənin alınması", Naxçıvan Qızlar Liseyinin şagirdi Cansu Cəlilova isə "Naxçıvan Muxtar Respublikasında zəfəranın yetişdirilməsi və introduksiyası" layihələrinə görə beynəlxalq diplomlara layiq görülüblər.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin və Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin birgə həyata keçirdiyi "Sabahın tədqiqatçıları" layihəsinin iştirakçıları "Sabahın alimləri" XII respublika müsabiqəsinə 8 müxtəlif istiqamət üzrə 7 layihə təqdim etmişdilər. Onlardan 6-sı final mərhələsinə vəsiqə qazanmışdır.

Müsabiqə 13-15 fevral tarixlərdə Bakı şəhərində keçirilib. Müsabiqənin keçirilməsində məqsəd Azərbaycan Respublikasında fəaliyyət göstərən ümumi təhsil müəssisələrinin IX-XI siniflərində təhsil alan şagirdlərin elmi axtarışlara sövq edilməsi, elmi-tədqiqat işinə meyli olan istedadlı şagirdlərin aşkar edilməsi, həmçinin yüksək elmi-tədqiqat nəticələri əldə etmiş Azərbaycan məktəblilərinin seçilib, ABŞ-da keçirilən İntel İSEF – Beynəlxalq Elm və Mühəndislik Sərgisinə göndərilməsidir.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## “Bir millət iki dövlət!” şüarı həm də sarsılmaz iradənin, həmrəylik və tək amala sadiqliyin nümunəsidir

*Xalqımızın tarixi, milli-mənəvi və ümumbəşəri dəyərlərində, eləcə də həyat və məişətində türk etnosunun böyük rolu olmuşdur. Böyük Səlcuq sultanlığının Anadolu torpaqlarındakı hökmranlığından tutmuş, Əmir Teymurun Ankara düzündəki qanlı cənginə, Şah İsmayılın Çaldıran çölündəki şücaətinə, Nadir şahın Muğan yaylağındakı ilqarına, Hacı Çələbinin Qızılqayadakı siyasətinə qədər olan bu birlik və mübarizlik tariximizin hər dövrünə işıq tutur, dünənimizdən bu günümüzə açılan körpüdə yolumuzu aydınladan mayaka bənzəyir. Çünki bu hadisələrin hər birinə nəzər yetirsək, bir tək reallığı dərk edə bilirik – türkün türkdən başqa dostu və qardaşı yoxdur. Düzdür, müasir dövrün bir çox siyasi hadisələri bəzi xalqları və dövlətləri öz çıxarları üçün türkə yaxınlaşdırıb. Amma bu reallığı heç kim inkar edə bilməz ki, türkün başı nə zaman müsibət çəksə, onun imdadına ilk çatan da elə türk soydaşı olub. Eynilə dostluqları, ilqarları, həmrəylikləri, birlik və bərabərlikləri ilə düşmənin canına vəlvələ salan Azərbaycan və Türkiyə qardaşlığı kimi. Məlumdur ki, qardaş Türkiyə Respublikasındakı təbii fəlakətdən sonra ölkəmizin bir çox kütləvi informasiya vasitələri bu hadisələri işıqlandırmaqla cəmiyyətin bütün təbəqələrini maarifləndirmək, düzgün məlumatları daha böyük auditoriyalara çatdırmaq üçün əsl fədakarlıq nümunəsi göstərib. Mətbuatın, tarixin hər dövründə ziyalıların ali xitabət kürsüsü olduğunu göz önünə gətirsək, məhz ölkəmizin, eləcə də muxtar respublikamızın tanınmış ziyalıları, akademikləri, tarixçi-alimləri, hətta tibb və səhiyyə sahəsində öz sözünü demiş həkimlərimiz belə qəzetlərin imkanından istifadə etməklə qardaş ölkəyə öz arzu və diləklərini ünvanlayırlar, daha dəqiq desək, öz ziyalı mövqeləri ilə insanları maarifləndirmək missiyasını yerinə yetirirlər.*

Qardaş ölkəyə hamı tərəfindən yardım göndərilir. Ölkəmizdəki bir çox idarə və təşkilatları, ali təhsil ocaqlarını, ümumtəhsil müəssisələrini də bura əlavə etsək, atdığımız bu addımların nə qədər şərəfli və müqəddəs amala xidmət etdiyini görərik. Bu sıraya bir də qardaş ölkədə canı bir, qanı bir olan türk qardaş-bacılarımıza canla-başla xidmət edən səhiyyə işçilərini, o cümlədən hər an türk soydaşlarımıza yardım əlini uzatmağa hazır olan digər ziyalılarımızı da əlavə etsək, vəziyyət daha da mütəşəkkil xarakter alar. Çünki yaşından asılı olmayaraq, “Qardaş ölkəmizə hər an canla-başla xidmət etməyə hazırıq, bu vaxta qədər həmişə bir-birimizə arxa durmuşuq, bundan sonra da duracağıq!” – deyən ziyalılarımızın da sayı az deyil. Elə mövzumuzda adlarını çəkdiyimiz və həmsöhbət olduğumuz alimlərimiz kimi...

İlk həmsöhbətimiz Naxçıvan Dövlət Universitetinin professoru, tibb elmləri doktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar həkimi ***İsa Abdullayev*** deyir ki, tarixboyu Türkiyə və Azərbaycan arasında sarsılmaz dostluq və qardaşlıq münasibətləri mövcud olub. Tariximizin hansı hissəsinə müraciət etsək, bu iki ölkənin bir-biri ilə yaratdığı səmimi münasibətlərin qazandırdığı zəfərləri, hətta ən çətin və keçilməz vəziyyətlərdən belə necə alnıaçıq çıxdığını görəcəyik. Götürək 44 günlük Vətən müharibəsini. Dünyanın tanınmış kütləvi informasiya vasitələrinə müsahibələrində Türkiyənin ölkəmizə mənəvi dəstəyini yüksək qiymətləndirən Prezident cənab İlham Əliyevin vurğuladığı kimi, bu dostluq döyüş əməliyyatlarının aparıldığı günlərdə bir daha təsdiqləndi. Düşmən Ermənistan üzərində Zəfərimiz hər iki xalq tərəfindən təntənə ilə qeyd edildi. Türk dünyasının birlik və həmrəyliyinin lokomotivi olan hər iki dövlət arasındakı siyasi, iqtisadi, hərbi, elmi-texnoloji, kommunikasiya sahələrində olan əlaqələri daha da gücləndirən Şuşa Bəyannaməsinin imzalanması bu qardaşlığın yeni səhifəsi kimi tarixi əhəmiyyəti ilə seçildi.

Həmsöhbətim dedi: – Ümumilikdə, yüz minə yaxın türk soydaşımızın yaralandığı, yaxud həyatını itirdiyi məlum hadisə bizi – Türkiyə və Azərbaycanı bir-birinə daha da yaxınlaşdırdı. Vətənimizdən böyük xilasetmə qrupları, səhiyyə işçiləri, həkim-cərrahlar zərərgörmüş əraziyə yollandı, eləcə də insanlar tərəfindən yığılmış yardımlar ünvanlara çatdırıldı. Fikrimizi daha dəqiq ifadə etsək, rəsmi məlumatlarda da qeyd edildiyi kimi, ümumilikdə, faciə baş verdiyi dövrdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən Fövqəladə Hallar Nazirliyinin 725 nəfərlik şəxsi heyəti Türkiyəyə göndərilib. Yardım xilasetmə işlərində iştirak edən şəxsi heyət və tibbi personaldan başqa, xilasetmə işlərində istifadə olunan ləvazimatlar, generatorlar, nasos stansiyaları, avtomobillər, həmçinin modul tipli səhra hospitalları, tibbi avadanlıq, dərman preparatları, təxirəsalınmaz yardım vasitələri, çadırlar, yataq dəstləri, habelə zərərçəkmiş əhali üçün humanitar yardımı əhatə edir. Bu məqamda, xüsusilə də Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın göstərişinə əsasən zəlzələ qurbanlarına dəstək məqsədilə Heydər Əliyev Fondu tərəfindən qardaş ölkəyə ard-arda humanitar yardım göndərilməsini bir türkçülük, humanizm nümunəsi hesab etmək olar. Azərbaycanın atdığı bu təmənnasız addımlar ən çətin gündə dosta dayaq olduğu kimi, həm də düşmənə gözdağıdır. Hadisəyə bir az da siyasi müstəvidən yanaşsaq, Türkiyə və Azərbaycanın bu cür yaxınlaşması mənfur Ermənistan hökuməti başda olmaqla bizə mənfi münasibəti olan bir çox gücləri qorxuya salır.

İsa Abdullayev həm də Naxçıvan Dövlət Universiteti Tibb fakültəsinin tələbələrinə rəhbərlik edərək qardaş ölkədə bir çox tibbi təcrübələrdə, o cümlədən regionun tanınmış ali təhsil ocaqlarına məxsus iri səhiyyə müəssisələrində olmuşdur. O, iki qardaş ölkənin səhiyyə sahəsindəki sıx əməkdaşlığından danışaraq dedi:

– Vətən müharibəsindən ötən bu zaman müddətində yüzlərlə hərbçimiz “YAŞAT” Fondunun dəstəyi ilə müalicə üçün Türkiyəyə göndərilib, onların böyük əksəriyyəti müalicələrini başa vuraraq Vətənə geri dönüblər. Sağlamlıqlarına qovuşmuş şəxslərin arasında hər zaman dövlətimizin diqqət və qayğısı ilə əhatə olunan şəhidlərimizin ailə üzvləri də yer alır. Həmçinin türkiyəli mütəxəssislər Azərbaycana dəvət olunaraq burada da müharibədə xəsarət almış şəxslərin sağlamlıqlarının bərpası prosesinə aktiv cəlb olunublar. Qardaş ölkənin mütəxəssislərinin bu





müqəddəs işdə canla-başla çalışması qardaşın qardaşa arxa-dayaq olduğunun bariz nümunəsidir. Onu da diqqətə çatdırım ki, Türkiyə Respublikasındakı yüksək səhiyyə xidməti imkan yaradır ki, ölkəmizdəki tibb təhsili də bu istiqamətdə irəliləsin, yəni qardaş ölkə ilə bu sahədəki qarşılıqlı əməkdaşlığımız daha konkret xarakter alsın. Elə bunun nəticəsidir ki, bu gün Azərbaycan Tibb Universiteti Türkiyənin 20-yə yaxın universiteti ilə əməkdaşlıq edir. Həmçinin tibb təhsili sahəsində qarşılıqlı əməkdaşlığımızın bir göstəricisi də odur ki, hazırda 700-dən çox Türkiyə vətəndaşı Azərbaycan Tibb Universitetində ali tibb təhsili alır.

“Qardaş ölkənin bir neçə səhiyyə müəssisəsində təcrübədə olduğunuz zaman gördüyünüz səhiyyə infrastrukturunu necə qiymətləndirdiniz, yaxud iki ölkə arasındakı səhiyyə sistemini qarşılaşdırdıqda elə ciddi bir fərqin olduğunu görürükmü?” sualımıza İsa həkim belə aydınlıq gətirdi: – Hər bir ölkənin səhiyyə sistemi – bütün dövlət və özəl təşkilatların, müəssisələrin, struktur və ehtiyatları humanitar siyasətinin məcmusu olmaqla insanların sağlamlığını yaxşılaşdırmaq, qorumaq və ya bərpa etməyə xidmət etməlidir. Səhiyyə sistemi həm fərdi, həm də ictimai xidmətlərin göstərilməsini özündə ehtiva edir. Bu gün istər Azərbaycanda, istərsə də Türkiyə Respublikasında nümunəvi səhiyyə sistemi formalaşıb. Hətta mən deyərdim ki, Avropa regionunda mövcud olan ən yüksək səhiyyə sistemləri sırasında qardaş ölkənin öz yeri var. Bu gün bir çox Avropa ölkələrinin səhiyyə sistemləri demoqrafik və epidemioloji dəyişikliklər, sosial-iqtisadi bərabərsizliyin dərinləşməsi, resursların çatışmazlığı, texnologiyaların inkişafı və insanların artan tələbləri ilə bağlı ciddi problemlərlə üz-üzə qalır. Bu da ölkələrdə ciddi problemlər yaradır. Lakin səhiyyə sisteminin düzgün qurulması yüksək iqtisadi inkişafa, sağlam rəqabət qabiliyyətinə və əmək məhsuldarlığına öz müsbət təsirini göstərir, həmçinin sosial rifahın inkişafına da səbəb olur. Çox sevindirici haldır ki, yuxarıda sadaladıqlarımız müsbət fikirlərin hər biri istər ölkəmizin, istərsə də Türkiyə Respublikasının səhiyyə sistemi daxil olmaqla bir çox istiqamətlərdə özünü doğruldub. Bu isə əminlik yaradır ki, qardaş ölkədə təbii fəlakətdən xəsarət alanların müalicə və sağlamlıqlarının bərpası, qısa zamanda normal həyata qayıtmaları üçün bütün zəruri tədbirlər görüləcək, Türkiyə qüdrətli dövlət olduğunu bir daha təsdiqləyəcək.

Naxçıvan Dövlət Universitetinin dosenti ***Bəhruz Məmmədov***la da bu barədə həmsöhbət oluruq. Müsahibimiz deyir ki, qardaş Türkiyə Respublikası dəfələrlə bu cür ağır hadisələrin şahidi olub. 1999-cu il İstanbul zəlzələsindən və 2011-ci ildə baş vermiş Van zəlzələsindən sonra bu qardaş ölkədə baş vermiş ən güclü təbii fəlakət oldu. Hadisənin yaratdığı çətin və ağrılı-acılı şəraitdə yenə də Azərbaycan əsrlərin sınağından çıxmış bu dostluğa sadiq qaldı, qısa zamanda qardaş ölkəyə ən böyük yardımı göstərdi və göstərməkdə də davam edəcək. Bu birlik və bərabərlik hər bir vətəndaşın Vətən borcu, qeyrət borcudur.

Qeyd etmək istərdim ki, ölkəmizdən qanəvəzediciləri, antibiotiklər, sarğı və tikiş materialları, dezinfeksiyaedicilər, eləcə də digər məsrəf tibbi əmlakdan ibarət, ümumilikdə, on tonlarla yük Türkiyəyə yola salınıb. Həmçinin dövlət başçısının tapşırığına əsasən qardaş ölkəyə yardım məqsədilə Azərbaycan Ordusunun bir qrup tibb personalı Kahramanmaraşda zəlzələ nəticəsində xəsarət alanlara səhra hospitalında tibbi xidmət göstərirlər. Bu yardım aksiyaları qardaş ölkəmizə hələ bir müddət də davam edəcəkdir.

Bəhruz müəllim deyir: – İstər Azərbaycanda, istərsə də qardaş Türkiyə Respublikasında səhiyyə islahatları ölkə iqtisadiyyatında sürətli inkişafın başlaması ilə paralel olaraq daha da genişlənib və müasirləşib. Bu məqamda öz şəxsi təcrübəmdən bir reallığı diqqətinizə çatdırmalıyam ki, mən də daxil olmaqla ali təhsil ocağımızın bir neçə ixtisaslı həkimi, pedaqoqu, o cümlədən professor İsa Abdullayev, dosent Elsevər Əsədov və digər alimlərimiz dəfələrlə qardaş ölkənin bir sıra səhiyyə ocaqlarında, xəstəxanalarında istehsalat təcrübələrində olmuşuq. Burada yaradılan yüksək səhiyyə xidməti, o cümlədən hərtərəfli inkişaf edən tibbi mühitlə, eləcə də ali təhsil ocaqlarında tibb elmi üçün yaradılmış müasir şəraitlə yaxından tanışıq. Qardaş ölkədə Naxçıvan Dövlət Universitetinin tələbələri ilə təcrübədə olduğumuz Kocaeli, Ərzurum Atatürk, Kayseri, Ankara, Van Yüzüncü İl universitetlərində yaradılan şərait bu baxımdan xüsusi qeyd olunmalıdır. Yüksək tibbi personal qrupu, dünyanın bir sıra yerlərində təcrübə keçmiş cərrahlar, səhiyyə işçiləri burada nümunəvi tibb elminin əsasını qoyub, desək, yəqin ki, yanılmarıq. Hətta Türkiyə Respublikasında səhiyyə sistemində həyata keçirilən islahatların uğurla nəticələnməsi üçün inkişaf etmiş ölkələrin təcrübəsi ilə tanışlıq, Azərbaycanın səhiyyə idarə və müəssisələrinin müxtəlif beynəlxalq təşkilatlarla əməkdaşlığı mühüm əhəmiyyət kəsb edir. Bu səbəbdən Azərbaycan və Türkiyə hökuməti ÜST(WHO), UNİCEF, USAİD-nin İlkin Səhiyyə Xidmətlərinin Gücləndirilməsi Layihəsi, Blumberq Təşəbbüsü Fondu, Dünya Bankı, Avropa Komissiyası, BMT-nin müvafiq strukturları və digərlər səhiyyə təşkilatları ilə fəal əməkdaşlıq edirlər. Son olaraq onu da diqqətinizə çatdırım ki, uzun illərdir, müəllim kimi fəaliyyət göstərdiyim Naxçıvan Dövlət Universiteti də qardaş ölkəyə otuz min manat məbləğində ianə köçürüb. Biz də sona qədər “Bir millət iki dövlət!” andımıza sədaqət göstərəcəyik, bu müqəddəs yolda əlimizdən gələni əsirgəməyəcəyik.

*Ariflər deyirlər ki, dost qazanmağın tək yolu yaxşı dost ola bilməkdir. Vətənimizin inkişaf tarixindən ötüb-keçən bu zaman müddətində dərk etdik ki, Azərbaycanın özünə sadiq dost, qardaş qazanmağının elə yeganə səbəbi də hər zaman humanist və sülhsevər mövqe tutması olub. İstər Birinci Qarabağ savaşında, istərsə də 44 günlük Vətən müharibəsində bunları bütün reallığı ilə gördük, qardaş ölkənin təmənnasız maddi-mənəvi dəstəyinin şahidi olduq. Bu gün isə bu birlik-bərabərlik, həmrəylik dövlətimiz, xalqımız tərəfindən qürurla davam etdirilir. Elə ziyalı həmsöhbətlərimizin də dediyi kimi: “Bir millət iki dövlət!” andına sahib çıxmaq da yalnız Azərbaycan və Türkiyə kimi qüdrətli dövlətlərin, mübariz xalqın bacara biləcəyi işdir.*

**Məcid RƏŞADƏTOĞLU**

## Külli miqdarda siqaret və spirtli içki aşkar edilib

Azərbaycan Dövlət Gömrük Komitəsi Naxçıvan Baş Gömrük İdarəsinin əməkdaşları aksiz markası ilə markalanmayan külli miqdarda siqaretin və spirtli içkilərin realizə edilməsinin qarşısını alıblar.

Belə ki, daxil olmuş məlumat əsasında Naxçıvan Baş Gömrük İdarəsinin Əməliyyat və İstintaq İdarəsinin əməkdaşları Şərur rayon sakininin yaşadığı ünvana baxış keçiriblər.

Baxış zamanı həmin ünvanda yerləşən evin həyətyanı sahəsində olan yardımçı tikililərdən ölkə ərazisinə qaçaqmalçılıq yolu ilə gətirilən və aksiz markası ilə



markalanmayan müxtəlif adlarda, ümumilikdə, 370760 ədəd siqaret və 41 ədəd spirtli içki aşkar edilib. Faktla bağlı araşdırma aparılır.

***Azərbaycan Dövlət Gömrük Komitəsinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsi***

## Kinoviktorina keçirilib

Naxçıvan Müəllimlər İnstitutunda tələbələrin qış tətili müddətində asudə vaxtlarının düzgün təşkili diqqətdə saxlanılmışdır. Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Təhsil nazirliklərinin “Təhsil və mədəniyyət müəssisələrinin qarşılıqlı fəaliyyətinin səmərəli təşkili ilə bağlı 2022-2023-cü tədris ili üçün Tədbirlər Planı” na əsasən institutun və Naxçıvan Dövlət Film Fondunun birgə təşkilatçılığı ilə Naxçıvan Müəllimlər İnstitutunun bir qrup tələbəsi arasında “Bu kino ki var...” adlı kinoviktorina keçirilmişdir.



Kinoviktorinada Naxçıvan Müəllimlər İnstitutunun tələbələrindən ibarət 8 komanda iştirak etmişdir. Kinoviktorinanın keçirilməsində məqsəd tələbələrin kino biliyinin yoxlanması, milli kinonun təbliğidir.

Viktorinada ən yüksək bal toplayan “Buta” komandası I, “Simnar” komandası II, “Karvan” komandası isə III yerə layiq görülərək diplomlarla təltif olunmuşlar.

***Naxçıvan Müəllimlər İnstitutunun mətbuat xidməti***

# Gəlincikdən ayrılmağa macal tapmamış qızlarımızın gəlin olmağa məhkum edilməsi bağışlanılmaz cinayətdir

*Yurdumuz, günü-gündən çiçəklənən Azərbaycanımız hər zaman dünya xalqlarından özünəməxsus adət-ənənələri, zəngin milli-mənəvi dəyərləri, qədim tarixi ilə seçilmişdir. Onlardan önəmlisi isə məhz ailə dəyərlərimizdir. Ailə dəyərləri ali dəyərlərdir. Bəs bizlər üçün ailə nə deməkdir? Ailənin mahiyyəti nədir?*

Azərbaycan ailəsi özünəxas mədəniyyəti, vətənpərvərliyi, qonaqpərvərliyi, ağsaqqala, ağbirçəyə hörməti, uşağa qayğısı ilə bütün dövrlərdə digər xalqlara nümunə olmuşdur. Ümumiyyətlə, ailə insanın dünyaya göz açdığı, boya-başa çatdığı və tərbiyə olunduğu, insanın istər uşaq və gənclik, istərsə də ahıl dövründə ona təbii sığınacaq olan müqəddəs bir məkanıdır. Müqəddəs məkanımız və eyni zamanda cəmiyyətin təməli olan ailənin əsasını qadın və kişi arasında bağlanmış nikah təşkil edir.



Nikah qanunla müəyyən edilmiş qayda və şərtlərə riayət etməklə bağlanılan, ər-arvad arasında şəxsi əmlak hüquq və vəzifələrini doğuran, qadınla kişinin azad, könüllü və bərabərhüquqlu ittifaqıdır. Nikaha daxil olan vətəndaşlar ailə yaratmaqla təkcə bir-birləri qarşısında deyil, eyni zamanda valideynləri, yaxınları və ümumiyyətlə, cəmiyyət qarşısında məsuliyyət daşıyırlar. Erkən nikah isə dövrümüzün ən aktual problemi olaraq hər kəsi narahat edən məsələlərdən, başlıca sosial problemlərdən biridir. Bəs bu problemi yaradan başlıca səbəblər hansılardır?

Azərbaycan Respublikası Ailə Məcəlləsinin 10-cu maddəsinə əsasən nikah yaşı 18 müəyyən edilmişdir. Üzrlü səbəblər olduqda isə bu yaş həddi 1 ildən çox olmayaraq azaldıla bilər. Lakin elə hallar olur ki, gənclərimiz ailə anlayışını kifayət qədər dərk etmədən, yaşlarının rəsmi nikah üçün müəyyən olunmuş yaş həddindən aşağı olmasına baxmayaraq, erkən yaşda ailə qurmağa meyilli olurlar. Bundan da acınacaqlı hal isə odur ki, yeniyetmələrimiz erkən nikaha sevərək, könüllü olaraq deyil, ətraf mühitin, xüsusilə də valideynlərin təhriki ilə zorla bu izdivaca məhkum edilirlər. Bu kimi hallar nikah hesab olunmur, şərti olaraq erkən nikah adlanır.

Müasir dövrümüzdə bəziləri erkən nikaha cəmiyyətimizdə adət-ənənə pərdəsi ilə haqq qazandırmağa çalışsa da, bu, qətiyyən milli dəyərlərimizlə bağlı məsələ deyil, əksinə, qadın və uşaq hüquqlarının kobud şəkildə pozulmasıdır! Ən önəmlisi isə təcrübə göstərir ki, erkən nikah dedikdə xoşbəxt ailədən söhbət gedə bilməz və ciddi problemlərin başlanğıcı kimi başa düşülməlidir. İstər hüquq-vəzifələrin pozulması, istərsə də fiziki və psixoloji sağlamlığın itirilməsi, məişət zorakılığı, sağlamlıq imkanları məhdud uşaqların dünyaya gəlməsi hallarını bura aid edə bilərik. Belə ailələr nəinki sağlam atmosfera malik bir ailə ola bilmir, bütün müstəqil düşüncə tərzi, hüquq və azadlıqlar istismara məruz qalmış olur.

Müsahibim Naxçıvan Muxtar Respublika Xəstəxanasının ginekoloq-cərrahı ***Günay Bağırsoylu*** da bir həkim və qadın kimi erkən nikahın düzgün olmamasını vurğulayır, yarada biləcəyi xəstəlikləri danışır. Bildirir ki, bu, əqli və fiziki cəhətdən qüsurlu uşaqların doğulmasına, ananın və körpənin ölümünə gətirib çıxarır. Yeniyetmələrdə reproduktiv sağlamlıqla bağlı problemlər yaranır. Həmçinin ekspertlər yeniyetmə orqanizminin fizioloji inkişafda olduğunu və bu dövrdə ailə quranlardan bir çox xroniki xəstəliklərin kəskinləşə biləcəyini xüsusi qeyd edirlər. Belə bir vaxtda erkən nikaha girmə yeniyetmələrdə HİV, QİÇS, xərçəng və pisxoloji xəstəliklərə də yol açır.

Erkən nikahdan qaynaqlanan psixoloji problemlərindən isə danışsaq, uğursuz nikahın, nəticədə, hər iki cinsin nümayəndəsinə böyük təsir etdiyini deyə bilərik. Fikrimcə, erkən nikahın qarşısını almağın ən gözəl yolu uşaqlar və yeniyetmələr ilə təməlindən, məktəb vaxtlarından maarifləndirmə işlərinə başlamaq lazımdır. Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbin psixoloqu ***Təhminə Cəfərli*** bildirir ki, erkən nikah birinci, qızların psixologiyasına, sonra isə təhsil hüququna böyük zərbə vurur. Nəticədə isə ananın, körpənin psixoloji problemlərinə və savadsızlığın artmasına səbəb olur. Çünki erkən nikaha daxil olan qızların əksəriyyəti nəinki ali təhsil, tam orta təhsil belə ala bilmir. Təhsilin olmaması isə cəmiyyətdə qadının rolunu azaldır və balans pozulur. Ölkəmizdə isə təhsilli analara hər zaman böyük ehtiyac vardır. Çünki cəmiyyət üçün mənəvi-psixoloji, fizioloji cəhətdən daha sağlam və hərtərəfli, yararlı vətəndaşın böyüdülməsində analarımızın rolu misilsizdir.

Hüquqi cəhətdən isə qeyd etmək lazımdır ki, nikah yaşından az olan yeniyetmələrin ailə qurması, hər hansı bir şəxs tərəfindən buna təhrik edilməsi isə qadın və uşaq hüquqlarının kobud şəkildə pozulmasıdır. Əgər bu normalar pozularsa, cinayət məsuliyyətinə səbəb olur. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 176.1.1-ci maddəsində göstərilir ki, "Qadını nikaha daxil olmağa məcburetmə – iki min manatdan üç min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır". Bundan əlavə isə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 176.1.2-ci maddəsində qeyd olunur ki, "Eyni əməllər nikah yaşına çatmayan şəxs barəsində törədildikdə – üç min manatdan dörd min manatadək miqdarda cərimə və ya dörd ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır".

Erkən yaşda ailə quranların özünü yetərincə dərk etmək qabiliyyətləri hələ formalaşmadığı üçün bir çox məsuliyyətin öhdəsindən gələ bilmirlər. Bu isə ailə münasibətlərinin tənzimlənməsində qarşısı alınmaz problemlər yaradır, boşanma, intihar və cinayət kimi faciələrlə nəticələnir. Sonu uçurum olan erkən nikaha gedən yolun iki başlanğıcı var: biri həddi-büluğa çatmamış oğlan və ya qızın öz istəyi, digəri isə valideynlərinin məcburiyyəti, "arzusu". Erkən nikahın qurbanı isə, əsasən, zərif cinsin nümayəndələridir. Zənnimcə, bir qadın üçün ən taleyüklü məsələ həyat yoldaşı seçimidir. Təəssüf ki, bəzən bu zaman verilən absurd qərarlar onların həyatları bahasına başa gəlir və qadınlarımız Ulu Tanrının bəxşişi olan ömürlərini öz əlləri ilə puç etmiş olurlar. Onu da qeyd etməliyik ki, gənc nəslin ailə səadətində valideynlərin də rolu əvəzsizdir. Təbii ki, hər bir valideyn övladının xoşbəxt olmasını istəyir, amma qızlarını çox erkən yaşda sevinclə, alqışla xoşbəxt həyata yola saldıqlarını düşünərkən, baş verə biləcək gələcək bədbəxtliyi dərk etmirlər. Valideynlər də, öz növbəsində, erkən nikahın fəsadlarına qarşı ciddi yanaşmalıdırlar ki, uşaqların mənəvi inkişafına, fiziki və psixi sağlamlığına xələl yetirməsinlər.

Erkən yaşda ailə quranlar daim dövlətimizin diqqət mərkəzindədir. Bunun ən bariz nümunəsi Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin fəaliyyətidir. Komitənin əməkdaşı ***Elsun Cahangirli*** bildirir ki, muxtar respublikada erkən nikahın qarşısını almaq məqsədilə komitə tərəfindən bir sıra işlər görülmüşdür. Belə ki, ümumtəhsil məktəblərində, məktəbdənkənar müəssisələrdə uşaqlara, eləcə də muxtar respublikanın rayon və kənd mərkəzlərində qadınlara maarifləndirici seminarlar keçirilmişdir. 26 yanvar 2023-cü il də isə Sədərək rayon Sədərək kənd 1 nömrəli tam orta məktəbin 9 və 11-ci sinif şagirdləri ilə "Erkən nikah ailə institutunun məhvidir" adlı tədbir, 27 yanvarda Şərur rayon Cəlilkənd mərkəzində kənd sakinləri ilə "Erkən nikah və onun fəsadları" haqqında, 9 fevralda isə Ordubad rayonunda "Erkən nikah ailə institutunun məhvidir" maarifləndirici tədbirlər keçirilmişdir. Həmçinin komitə tərəfindən "Milli dəyərlərimiz deyəndə nələri başa düşürük?", "Erkən nikah-ailə faciəsinin təməlidir" mövzularında maarifləndirici broşürlər hazırlanmışdır ki, həmin broşürlər uşaq hüquqları haqqında keçirilən tədbirlərdə iştirakçılara paylanılmışdır.

Bununla yanaşı, müsahibimiz Elsun Cahangirli bildirir ki, muxtar respublikanın 2022-ci ilin II rübünə nəzər saldığımız zaman 1936 sağlamlıq imkanları məhdud uşaq dünyaya gəlmişdir ki, bunun 1414-ü anadangəlmə, 522-si sonradan qazanılmışdır. Həmin ailələrə nəzər saldığımız zaman başlıca səbəbini erkən nikah bağlanmasında görürük. Daxili İşlər Nazirliyinin rayon icra hakimiyyətləri yanında qəyyumluq və himayəçilik komissiyaları da aidiyyəti qurumlarla əlaqəli şəkildə fəaliyyət göstərməklə, həssas məsələnin həlli istiqamətində tədbirlər həyata keçirir.

*Göründüyü kimi, dövlətimiz erkən yaşda nikahların qarşısını almaqla yanaşı, onları himayə də edir. Lakin cəmiyyətdə baş verən belə hallara qarşı mübarizəni təkcə dövlət orqanları aparmamalıdır. Hər birimiz bu zəruri məsələyə qarşı çıxmalı, buna mentalitet, ənənə donu geyindirənlərlə barışmamalı, üzərimizə düşən bu məsuliyyətə, mənəvi borca biganə qalmamalıyıq. Gəlincikdən ayrılıb gəlinlik geyinməyə məhkum edilən qızlarımıza dəstək olmalıyıq, "Tez evlənən uduzmaz", – deyərək imza atmağı bacarmayan qızların talehsiz həyatına imza atılmasına yol verilməməlidir. İşıqlı sabahımız olacaq yeniyetmələri hərtərəfli düşünməyə, gələcək ailə və ana-ata məsuliyyətini şüurlu şəkildə dərk etməyə səsləməliyik.*

**Sürəyya BAĞIROVA**

## Xilasedicilər üçün taktiki-xüsusi təlim keçirilib

*Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin xilasedicilər taktiki-xüsusi təlimə cəlb olunub. Beynəlxalq təlimlərdə qazanılan təcrübənin tətbiqi və peşəkarlığın artırılması məqsədilə keçirilən təlimdə qar uçqunlarında zərərçəkənlərin axtarışı və xilas edilməsi, onlara ilkin tibbi yardımın göstərilməsi və idarəetmənin təşkili tətbiq olunub.*



Taktiki-xüsusi təlimə hazırlıq məqsədilə Mülki Müdafiə Alayında keçirilən qərargah məşqində komandir heyətinin, axtarış-xilasetmə qrup rəhbərlərinin fəaliyyət istiqamətləri və tapşırıqları dəqiqləşdirilib, qəza-xilasetmə və digər təxirəsalınmaz işlərin aparılması ardıcıllığı, qayda və üsulları barədə tapşırıqlar verilib.



Təlimin ssenarisinə əsasən *"112"* qaynar xəttinə şərti olaraq qar uçqunu nəticəsində mülki vətəndaşların qarın altında qalması ilə bağlı məlumatı daxil olub. Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzi tərəfindən hərbi hissə növbətçisinə verilən məlumata uyğun olaraq şəxsi heyətə həyəcan siqnalı verilib. Əvvəlcə şəxsi heyətə təlimin məqsədi çatdırılıb, təhlükəsizlik qaydalarına riayət etmələri barədə təlimatlandırılıb, texnikaların və xüsusi təyinatlı cihaz və avadanlıqların hazırlığı yoxlanılıb.

Hadisə yerində əvvəlcə ərazinin vizual kəşfiyyatı aparılıb, xilasetmə işlərinin aparılması üçün idarəetmə təşkil olunub. Sonra beynəlxalq təlimlərdə təcrübə qazanılan xilasedicilər və kinoloqlar xüsusi təyinatlı itlərlə, biper axtarış aparatı və şuplar vasitəsilə qar uçqunu altında qalan insanların axtarışını həyata keçirib, zərərçəkənlərin sayını və yerlərini dəqiq müəyyənləşdiriblər.

Aparılan əməliyyatlarla bağlı fasiləsiz məlumat mübadiləsi həyata keçirilib. Bölmələrin operativ idarə edilməsi məqsədilə Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzi və hərbi hissənin qərargahı aidiyyəti qurumlarla qarşılıqlı fəaliyyət göstərib.

Xilasedicilər keçilməsi mümkün olmayan və təhlükə yarana biləcək dağlıq ərazilərdə zərərçəkənləri qar kütləsi altından çıxararaq yerindəcə ilk yardım göstəriblər. Alpinist avadanlıqlarından, xərək və kəndirlər, digər vasitələrdən istifadə etməklə zərərçəkənlərin tibb məntəqəsinə təxliyəsi həyata keçirilib.

Tibb məntəqəsində həyat əlamətləri qiymətləndirilən zərərçəkənlərə ilk və həkiməqədərki tibbi yardım göstərilib.

Qeyd edək ki, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi və Avstriya Respublikası Federal Daxili İşlər Nazirliyinin qarşılıqlı əməkdaşlıq çərçivəsində Avstriya mütəxəssislərinin iştirakı ilə Qəbələ rayonunda qar uçqunlarında axtarış və xilasetmə, həmçinin xizəksürmə üzrə keçirilən təlimdə qazanılan təcrübənin tətbiqi xilasedicilərimizin peşəkarlığının artırılmasına, beynəlxalq təcrübənin öyrənilməsinə imkan yaradıb.

**Xəbərlər şöbəsi**

## Paralimpiyaçılar arasında pauerliftinq yarışı



İlham Əliyev adına Olimpiya İdman Kompleksində yaşı 18-dək olan sağlamlıq imkanları məhdud şəxslər arasında pauerliftinqin bençpress növü üzrə muxtar respublika birinciliyi keçirilib. Gənclər və İdman Nazirliyi ilə Paralimpiya Federasiyası tərəfindən birgə təşkil olunan yarışda, ümumilikdə, 15 iştirakçı qüvvəsini sınayıb.

İki çəki dərəcəsini əhatə edən birincilikdə Asim Zamanov (50 kiloqramdan yuxarı) və Həsən Qasımov (50 kiloqramadək) qalib olublar. Müvafiq çəki dərəcələrində Hünər Əsgərzadə ilə Əsgər Həbibov ikinci, Abdulla Abdullayev və Mehdi Quliyev üçüncü yerə sahib çıxıblar.

Sonda ilk üçlükdəki iştirakçılar diplomla təltif edilib.

Yarışın keçirilmə məqsədi sağlamlıq imkanları məhdud şəxslərin asudə vaxtını səmərəli təşkil etmək, idmana maraqlarını artırmaq və bu sahədə inkişaf etməklərinə zəmin yaratmaq olub.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***


## Elan

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında "ASAN xidmət" Mərkəzi dəftərxana, təsərrüfat və təmizlik ləvazimatlarının alınması üçün kotirovka sorğusu keçirilməsində iştirak etmək iddiasında olan bütün hüquqi və fiziki şəxsləri əməkdaşlığa dəvət edir. Tender komissiyasına aşağıdakı sənədlər təqdim olunmalıdır:

- *Maraq məktubu*
- *Malsatanın satdığı mallar haqqında məlumat*
- *İş və xidmətlər haqqında məlumat.*

Qeyd olunmuş sənədlər toplusunu 3 mart 2023-cü il, saat $18^{00}$-a kimi Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında "ASAN xidmət" Mərkəzinə təqdim etmək lazımdır.

***Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında "ASAN xidmət" Mərkəzinin tender komissiyasının əlaqə telefonu: (050-585-88-78)***



***İtmişdir***

JN-7673$^{B}$ inventar nömrəli, 10400002 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *info@serqqapisi.gov.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Ramiyyə Əkbərova

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1000. Sifariş № 123